**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ERKƏN ORTA ƏSRLƏRDƏ ALBANİYANIN UTİ VİLAYƏTİNİN YAŞAYIŞ MƏSKƏNLƏRİ

İxtisas: 5505.02 – Arxeologiya

Elm sahəsi: Tarix

İddiaçı: **Zümrüd Nağı qızı Qəhrəmanova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk Orta əsrlər arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Tarix üzrə elmlər doktoru, professor
**Arif Məhəmməd oğlu Məmmədov**

Rəsmi opponentlər: Tarix üzrə elmlər doktoru, professor
**Qüdrət Seyfulla oğlu İsmayılzadə**

Tarix üzrə fəlsəfə doktoru, dosent
**Taleh Vasif oğlu Əliyev**

Tarix üzrə fəlsəfə doktoru
**Saida Kamran qızı Babayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü

_____________ **İsmayıl Muxtar oğlu Hacıyev**

Dissertasiya şurasının elmi katibi: Tarix üzrə fəlsəfə doktoru, dosent

_____________ **Emin Arif oğlu Şıxəliyev**

Elmi seminarın sədri: AMEA-nın müxbir üzvü

_____________ **Vəli Baxşəli oğlu Baxşəliyev**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Dünyanın insanlar tərəfindən məskunlaşmış ən qədim mədəniyyətlərin ilkin ocaqları sırasında Xəzər-Aralıq dənizi, İran körfəzi əraziləri durur. Ulu babalarımızın ən qədim nəsillərinin yaşadığı tarixi Azərbaycan torpaqları bu regionun mərkəzində yerləşir. Bu baxımdan Azərbaycan tarixinin və arxeologiyasının erkən orta əsrlər mərhələsi Azərbaycan (Qafqaz) Albaniyasının mühüm bir dövrünü əhatə edir.

Uti vilayətinin ilk orta əsr abidələrinin arxeoloji tədqiqi də bu baxımdan əhəmiyyətlidir. Tədqiq olunan ərazi mərkəzi Bərdə olmaqla Kür çayının sağ sahilində yerləşən alban torpaqlarını təşkil edirdi. Bu bölgə şimal və şimal-şərqdən Kür çayı (Qarqar düzü də daxil olmaqla), cənub-şərqdən Araz çayı, o cümlədən Paytakaran (Kaspiana) əyaləti ilə, qərbdən Arsax əyaləti ilə sərhədlənirdi. Əyalətin şimal-qərb torpaqları Sakasena və Girdiman vilayətlərini əhatə edirdi. İstər Sovetlər dönəmində, istərsə də müstəqillik illərində bölgənin ilk orta əsr yaşayış yerlərində aparılan arxeoloji tədqiqatların nəticələri hesabatlarda, məruzə və tezislərdə, məqalələrdə əksini tapsa da kompleks şəkildə tədqiqata cəlb edilməmişdir. Aparılan arxeolji və yazılı qaynaqlara əsasən erkən orta əsrlərdə Qafqaz Albaniyası əyalətlərə və vilayətlərə bölünürdü. Albaniya ərazisində 12 əyalət mövcud olmuşdur. Bu əyalətlərə Kabalaka, Şəki, Kambisena, Əcəri, Çola, Lipina, Kaspiana, Uti, Sakasena, Girdman, Arsax və Sünik daxil idi. Albaniyanın Kürün sağ sahilindəki əraziləri 4 böyük nahanqa (əyalətə), 6 vilayətə bölünmüşdü. Nahanqlar Arsax, Uti, Paytakaran və Sünikdən ibarət idi.[1]

Uti əyaləti (nahanqı) xırda ərazilərə havarlara bölünmüşdü. Onların içərsində əsas yeri Sakaşena və Girdiman tuturdu. Sakaşena vilayətinin ərazisi Arsax əyaləti ilə Kür çayı arası torpaqları əhatə edirdi.

---

[1]Piriyev, V.Z. Azərbaycan tarixi-siyasi coğrafiyası / V.Z.Piriyev. – Bakı: Müəllim, – 2006. – s. 148.

Girdiman vilayətində Albaniyanın şimal şərq torpaqlarını əhatə edirdi. Aparılan arxeoloji və yazılı mənbələrə əsasən qeyd etmək mümkündür ki, Qafqaz Albaniyasının Uti əyalətinin müasir tarixi coğrafi ərazisi Tərtər rayonlarının ərazisi, Ağdərə, Goranboy, Ağdam, Ağcabədi, Füzuli, rayonlarının ərazisinin bir hissəsi və müasir Yevlax rayonunun Kür çayının sağ sahilində yerləşən və Bərdə rayonuna yaxın əraziləri əhatə etmişdir.

Azərbaycan Qafqaz Albaniyasının tarixi ərazilərindən biri olan Uti vilayətinin ilk orta əsr yaşayış yerlərində aparılmış arxeoloji tədqiqatların nəticələrinin kompleks şəkildə tədqiq olunması zərurəti də mövzunun aktuallığını şərtləndirən əlamətlərdəndir. Həmçinin, Uti vilayətinin bir hissəsinin işğal altında olduğunu və ermənilərin əsassız ərazi iddialarını, maddi mədəniyyət abidələri üzərində apardıqları saxtakarlıqları və beynəlxalq ictimaiyyəti çaşdırmağa yönələn cəhdləri də bu bölgənin ilk orta əsr yaşayış yerlərinin daha dərindən tədqiqini aktuallaşdırır. Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də Uti vilayətinin ərazisində yerləşən və mənbələrdə adı çəkilən ilk orta əsr yaşayış yerlərinin bu vaxta qədər lokallaşdırılmamasıdır.

Təqdim olunan dissertasiya işində ən aktual məsələlərdən biri ilk orta əsr yaşayış yerlərinin adlarının dəqiqləşdirilməsi, şəhər və kənd tipli yaşayış yerlərinin ilk dəfə olaraq sistemli şəkildə arxeoloji tədqiqata cəlb edilərək öyrənilməsi, onların Qafqaz Albaniyasının ilk orta əsrlərdəki siyasi, iqtisadi və mədəni həyatındakı yerinin müəyyənləşdirilməsidir. Uti əyalətinin ilk orta əsr yaşayış yerləri tədqiq olunarkən bölgənin təbii-coğrafi mühitinin və yaşayış məskənlərinin xarakterik xüsusiyyətlərinin nəzərə alınması diqqətdə saxlanılmışdır. Yaşayış yerlərinin yaranması və onların tənəzzülündə ticarət karvan yollarının, bölgədən axan çayların və onlardan çəkilən arxların, ərazidə baş vermiş siyasi proseslərin, yadelli hücumlarının və daxili çəkişmələrin təsiri də mövzunun araşdırılmasında əsas şərtlərdəndir.

Təqdim olunan mövzunun ayrıca dissertasiya mövzusu kimi işlənilməsi Uti əyalətinin Qafqaz Albaniyasının erkən orta əsrlər dövrü

tarixinin, arxeologiyasının öyrənilməsindəki yerinin dəqiqləşdirilməsi baxımından da diqqəti cəlb edir. Həmçinin, tədqiqat işinin erkən orta əsrləri (III-IX əsrlər) əhatə etməsi Qafqaz Albaniyasının Uti əyalətinin əhatə etdiyi ərazidə aparılan arxeoloji qazıntılar zamanı əldə edilən maddi mədəniyyət qalıqlarının dövrü ilə əlaqəlidir.

Qafqaz Albaniyasının Uti əyalətinin arxeoloji abidələri ayrı-ayrılıqda arxeoloqlar, etnoqraflar, tarixçilər və s. tərəfindən pərakəndə şəkildə qismən tədqiq olunmuşdur. Ərəb müəlliflərindən Əl-İstəxri, Əl-Məsudi, İbn Hövqəl və digərlərinin əsərlərində Uti vilayətinə dair məlumatlar yer alıb.[2]

Azərbaycan arxeoloqlarından Q.İsmayılzadənin Füzuli rayonundakı Qaraköpəktəpədə, R.Vahidovun Ağdam rayonu ərazisindəki Govurqalada, R.Göyüşovun Qarabağın xristian məbədlərinin yerləşdiyi ilk orta əsr yaşayış yerlərində, A.Nuriyevin, A.Məmmədovun Bərdə şəhəri ərazisində (Şətəl şəhər yerində), H.Cəfərovun Tərtər rayonu ərazisindəki Toxmaxtəpənin ilk orta əsr təbəqəsində, T.Əliyevin Beyləqandakı tədqiqatlarından Uti vilayətinin ərazisi, yaşayış yerləri, müdafiə tikillilərindən və s. bəhs edilir.

R.B.Göyüşovun "Qarabağın keçmişinə səyahət"[3] əsərində Qarabağ bölgəsində, həmçinin Uti vilayətində daş bütlər, məbədlər və digər maddi mədəniyyət abidələri haqqında dəyərli məlumatlar vardır." Müstəqillik dövründə erkən orta əsr abidələrində, o cümlədən Nağaratəpədə, Şortəpədə, Balatəpədə A.M.Məmmədov tərəfindən aparılan arxeoloji kəşfiyyat işləri bu dövrü öyrənmək baxımından dəyərlidir. Q.S.İsmayılzadənin "Arxeoloqun çöl gündəliyindən"[4] adlı əsəri bölgənin tədqiqi baxımından qiymətlidir. Tədqiqatçının Qaraköpəktəpə ya-

---

[2]Əliyeva, N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində / N.A.Əliyeva. – Bakı: Çaşıoğlu, – 1999. – 244 s.

[3]Göyüşov, R.B. Qarabağın keçmişinə səyahət / R.B.Göyüşov. – Bakı: Azərnəşr, – 1993. – 83 s.

[4]İsmayılzadə, Q.S. Arxeoloqun çöl gündəliyindən / Q.S.İsmayılzadə. – Bakı: Xəzər Universiteti, – 2009. – 202 s.

şayış yeri, Əhmədalılar türbəsi və s. tarixi maddi-mədəniyyət abidələri və yaşayış yerləri haqqında verdiyi məlumatlar diqqətəlayiqdir. 1964 cü ildən Qüdrət İsmayılzadə Qaraköpəktəpədə qazıntılara başalmış və otuz ilə yaxın bir müddətdə aparılan geniş miqyaslı qazıntılarla Qaraköpəktəpədə bir neçə minilliyi əhatə edən qalın mədəni təbəqə, müxtəlif dövrlərin tikintiləri və saysız hesabsız maddi mədəniyyət nümunələri üzə çıxarılmışdır.

Qarabağın, bütövlükdə Azərbaycanın VII-IX əsr tarixini öyrənmək baxımından akademik Z.M.Bünyadovun "Azərbaycan VII-IX əsrlərdə"[5] kitabı əhəmiyyətlidir. Kitabda Azərbaycanın, o cümlədən onun tərkib hissəsi olan Qarabağ bölgəsinin ərəb istilası ərəfəsindəki sosial-iqtisadi və siyasi vəziyyəti, əhalinin ərəblərə qarşı mübarizəsi, istiladan sonrakı dövrdə inzibati ərazi bölgüsü, vergi sistemi, kənd təsərrüfatı, sənətkarlıq, ticarət və s. haqqında dəyərli məlumatlar verilib.

Q.M.Əhmədovun "Orta əsr Beyləqan şəhəri",[6] T.R.Əliyevin "Qarabağın tarix və mədəniyyət abidələrinə qarşı terror",[7] T.M.Məmmədovun "Qafqaz Albaniyası ilk Orta əsrlərdə",[8] A.B.Nuriyevin "Qafqaz Albaniyasının şüşə məmulatı və istehsalı tarixi",[9] A.Ş.Orucovun "İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq"[10] əsərlərindən istifadə edilmişdir.

---

[5]Bünyadov, Z.M. Azərbaycan VII-IX əsrlərdə / Z.M.Bünyadov. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1989. – 336 s.

[6]Əhmədov, Q.M. Orta əsr Beyləqan şəhəri / Q.M.Əhmədov. – Bakı: Elm, – 1979. – 197 s.

[7]Əliyev, T.R. Qarabağın tarix və mədəniyyət abidələrinə qarşı terror // – Bakı: "Azərbaycan arxeologiyası" jurnalı, – 2007. №3-4, – s. 105-114.

[8]Məmmədov, T.M. Qafqaz Albaniyası ilk orta əsrlərdə / T.M.Məmmədov. – Bakı: Təhsil, – 2006. – 400 s.

[9]Nuriyev A.B. Qafqaz Albaniyasının şüşə məmulatı və istehsalı tarixi. – Bakı: Elm, – 1981. – s. 168

[10]Orucov, A.Ş. İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq / A.Ş.Orucov. – Bakı: Elm, – 1989. – 72 s.

R.M.Vahidovun “Mingəçevir III-VIII əsrlərdə,[11] A.M.Məmmədovun “Gəncəbasar IV-XIII əsrlərdə”,[12] Q.Ə.Cəbiyevin “Girdiman tarixi və tarixi coğrafiyası”,[13] X.A.Qasımovun “Orta əsrlərdə Azərbaycan mədəniyyəti”[14] və s. monoqrafiya, elmi məqalə və əsərlərdən istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti**. Dissertasiya işinin tədqiqat obyektini Qafqaz Albaniyasının Uti əyalətinin ilk orta əsr yaşayış yerləri, qəbir abidələri, müdafiə tikililəri, istehkamları, eləcə də onlarda aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət qalıqları və s. təşkil edir.

Dissertasiya işinin predmetini isə erkən orta əsrlərdə Qafqaz Albaniyasının Uti vilayətinin arxeoloji abidələrinin xəritəsinin tərtib edilməsi, arxeoloji materialların təhlil olunması, maddi mədəniyyəti haqda ümumi təsəvvür yaradılması, təsərüffat həyatının (əkinçiliyin, maldarlığın, sənətkarlığın, ticarətin) inkişafını öyrənmək təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədini ilk orta əsrlərdə Qafqaz Albaniyasının Uti vilyətində şəhər və kəndtipli yaşayış məskənlərinin yaranması, inkişafı və tənəzzül səbəbləri, əhalinin təsərrüfat həyatı, dini görüşləri, sənətkarlığı, tikinti memarlıq abidələri, iqtisadi-ticarət əlaqələrinin tədqiqi təşkil edir.

Yazılı mənbə məlumatları ilə arxeoloji qazıntıların nəticələrinin uzlaşdırılması, maddi mədəniyyəti haqda ümümi təsəvvürün yaradılması, onların müqayisəli təhlili və yekun nəticəyə gəlinməsi də tədqiqat işinin mühüm vəzifələrindəndir.

**Tədqiqat metodları**. Dissertasiya işi yazılarkən tarixi Uti vilayə-

---

[11]Vahidov, R.M. Mingəçevir III-VIII əsrlərdə. – Bakı: Azərbaycan EA Nəşriyyatı, – 1961. – 158 s.

[12]Məmmədov, A.M. Gəncəbasar IV-XIII əsrlərdə (tarixi arxeoloji tədqiqat) / A.M.Məmmədov. – Bakı: Elm, – 1993. – 203 s.

[13]Cəbiyev, Q.C.Girdiman tarixi (IV-IX əsrlər) / Q.C.Cəbiyev. – Bakı: Şərq-Qərb, – 2010. – 616 s.

[14]Qasımov, X.A.Orta əsrlərdə Azərbaycan mədəniyyəti / X.A.Qasımov. – Bakı: Aspoliqraf, – 2008. – 448 s.

tinin erkən Orta əsr abidələrində aparılmış arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət qalıqlarının öyrənilməsində müasir arxeologiya elmində qəbul edilmiş tipoloji təhlil metodu əsas götürülmüşdür. Eyni dövrə aid müxtəlif tipli yaşayış yerlərinin öyrənilməsində, eləcə də aşkar edilən arxeoloji dəlillərin mənbə məlumatları ilə uzlaşdırılmasında müqayisəli təhlil metodundan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- Qafqaz Albaniyasının Uti vilayətinin ilk orta əsrlər dövrü tarixi-coğrafiyasını dəqiqləşdirmək;
- Uti vilayətinin erkən orta əsrlər dövründə Albaniyanın siyasi, iqtisadi və mədəni həyatında yerini və rolunu müəyyənləşdirmək;
- Uti vilayətinin ilk orta əsr Şəhər tipli, kənd tipli yaşayış yerlərinin tarixi-arxeoloji baxımından tədqiqini həyata keçirtmək;
- Uti vilayətinin erkən orta əsr qəbir abidələrini, müdafiə tiklilərini, istehkamlarını araşdırmaq və orada aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət nümunələrinin tədqiqini həyata keçirmək;
- Qafqaz Albaniyasının Uti vilayətinin ilk orta əsrlər dövründə ölkənin digər bölgələri ilə iqtisadi və mədəni əlaqələrini arxeoloji materiallar əsasında araşdırmaq.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiya işi Qafqaz Albaniyasının Uti vilayətinin erkən orta əsr maddi mədəniyyətinin öyrənilməsinə həsr olunmuş ilk ümumiləşdirici elmi tədqiqat işidir. İlk dəfə olaraq Uti vilayətinin erkən orta əsr yaşayış yerləri abidələri qruplaşdırılaraq kompleks şəkildə müqayisəli təhlil edilmiş, sənətkarlığı, təsərrüfat həyatı, ticarət əlaqələri, dini abidələri və s. öyrənilmişdir. Ayrı-ayrı arxeoloqlar tərəfindən aparılmış arxeoloji qazıntıların nəticələrinin ümumləşdirərək elmi süzgəcdən keçirilməsi tədqiqatın mühüm yeniliklərindəndir. Mövzu işlənərkən bölgədə aparılan arxeoloji qazıntıların nəticələrinə əsaslanaraq, III-IX əsrlərdə mövcud olmuş maddi mədəniyyətin özündən əvvəlki ənənələr əsasında inkişaf nəticəsində yaranmasına, varislilik prinsipinin izlənilməsinə və mövcud maddi mədə-

niyyətin yerli zəminlə bağlı xüsusiyyətlərinin yeni elmi dəlillərlə möhkəmləndirilməsinə xüsusi diqqət yetirilmişdir. Dissertasiya işlənərkən Azərbaycanın və qonşu ölkələrin həmdövr abidələrinin materialları ilə müqayisələr aparılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəticələri Uti vilayətinin ilk orta əsr yaşayış yerlərinin tədqiq olunmasının bölgənin Azərbaycanın siyasi, iqtisadi və mədəni tarixində tutduğu yerin müəyyənləşdirilməsində, Azərbaycanın arxeologiyasına dair ümumiləşdirici əsərlərin yazılmasında, Azərbaycanın maddi mədəniyyətdəki ənənəviliyin və irsiliyin izlənilməsində, ali tədris müəssisələrində mühazirələrin tərtibində, dərs vəsaitlərinin hazırlanmasında, Azərbaycan arxeologiyasının, Azərbaycan tarixinin, memarlıq və incəsənət tarixinin mühüm problem məsələlərinin yeni elmi aspektdə tədqiqində, Tarix-diyarşünaslıq muzeylərinin yaradılmasında, Qarabağ üzrə elmi-kütləvi filmlərin hazırlanmasında, orta məktəb şagirdlərində vətənpərvərlik hissinin təbliğində və möhkəmləndirilməsində, tarix və memarlıq abidələrinin mühafizəsində, turizmin inkişafında mühüm əhəmiyyəti ola bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya giriş, üç fəsil, nəticə, ədəbiyyat siyahısı, ixtisar olunmuş sözlər, işə əlavə edilmiş tablo və şəkillərdən ibarətdir. Dissertasiyada araşdırılan problemlər üzrə iddiaçının "Qafqaz Albaniyasının Uti vilayətnin ilk orta əsr yaşayış məskənləri" adlı elmi tədqiqat işinin əsas nəticələri AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası" şöbəsində müzakirə edilərək nəşr olunmuş məqalələrdə elmi ictimaiyyətə çatdırılmışdır. Tədqiqat işinin əsas yekunları ilə əlaqədar respublika və beynəlxalq əhəmiyyətli konfranslarda elmi məqalələrlə çıxışlar edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk Orta əsrlər arxeologiyası" şöbəsində yerinə yetirilmiş, İnistitutun digər şöbələrindən dəvət edilmiş əməkdaşların iştirakı ilə müzakirə edilmiş və müda-

fiəyə təqdim olunmuşdur.

**Dissertasiyanın quruluşu və həcmi.** Dissertasiyanın giriş hissəsi 14.314 işarədən, I Fəsil 18.857 işarədən, II Fəsil 183.304 işarədən, III Fəsil 52.017 işarədən, nəticə hissəsi isə 13.173 işarədən ibarət olmaqla, cəmi 281.665 işarə sayı təşkil edir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı, işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, tədqiqatın metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, dissertasiyanın aprobasiyası və tətbiqi, işin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın quruluşu və həcmi haqqında məlumat verilir.

**I fəsil "Uti vilayətinin tarixi coğrafiyası və siyasi tarixi"** adlanır. Bu fəslin birinci yarımfəsli **"Uti vilayətinin tarixi coğrafiyası"**, ikinci yarımfəsli isə **"Uti vilayətinin siyasi tarixi"** adlanır.

**"Uti vilayətinin tarixi coğrafiyası"** adlanan birinci yarımfəsildə Qafqaz Albaniyasının əhatə etdiyi ərazilərin coğrafiyası, ərazinin əyalətlərə və vilayətlərə bölünməsi, ən iri əyalətlərindən olan Utinin əhatə etdiyi ərazilərin arxeoloji xəritəsi tərtib edilərək muqayisəli öyrənilmiş və müasir tarixi coğrafi ərazisi Tərtər rayonlarının ərazisi, Ağdərə, Ağdam, Ağcabədi, Füzuli, rayonlarının ərazisinin bir hissəsi, və müasir Yevlax rayonunun Kür çayının sağ sahilində yerləşən və Bərdə rayonuna yaxın ərazisini əhatə etməsi qənaətinə gəlinmişdir.

**"Uti vilayətinin siyasi tarixi"** adlanan ikinci yarımfəsildə Uti vilayətinin tarixi coğrafiyası və tarixi xəritəsi araşırılmışdır. Erkən orta əsr Qafqaz Albaniyasının Uti əyalətinin tarixi coğrafiyası haqqında ərəb, gürcü, Bizans, erməni mənbələrində müxtəlif qərəzli fikirlər mövcuddur. Çox təəssüfedici haldır ki, sovet dönəmində Azərbaycan tarixşünaslığının öyrənilməsinə diqqət edilməmişdir. Bundan məharətlə istifadə edən erməni və gürcü tədqiqatçıları Azərbaycanın ayrı-ayrı bölgələrini, tarixi həqiqəti saxtalaşdırmaqla, öz torpaqları kimi qələmə almağa çalışmışlar. Bu yarımfəsildə onların dedikləri arxeoloji və yazılı mənbələr əsasında təkzib edilmişdir.

II fəsil **"Yaşayış yerləri və istehkamlar"** adlanır. Bu fəsilin birinci yarımfəslində "Şəhər tipli yaşayış yerləri", ikinci yarımfəslində "Kənd tipli yaşayış yerləri", üçüncü yarımfəslində "Qalalar və müdafiə istehkamları", dördüncü yarımfəslində "Qəbir abidələri və memo-

rial tikililər", beşinci yarımfəslində "Arxeoloji materialların təsnifatı" araşdırılaraq tədqiq edilir.

II fəslin birinci yarımfəsli **"Şəhər tipli yaşayış yerləri"** adlanır. Bu yarımfəsildə Uti vilayətində erkən orta əsr yaşayış yerlərinin arxeoloji cəhətdən tədqiqi öz əksini tapmışdır. Uti vilayətində şəhər tipli yaşayış yerləri özündən əvvəlki yaşayış məskənlərinin davamlı inkişafı nəticəsində meydana gəlmişdir.[15] Uti vilayətində bir çox iri inzibati və ticarət sənətkarlıq mərkəzləri olan şəhərlərin əsası antik dövrdə yaranmışdır. Onların bəziləri əvvəlcə hərbi məqsəd üçün tikilmiş, digərləri ticarət yolu üzərində məntəqə rolunu oynamış, bir neçəsi bu və ya digər hökmdarın iqamətgahı olmuş, bəziləri isə sənətkarlıq mərkəzləri kimi meydana gəlmişdir. Şəhərlərin bəziləri isə yuxarıda göstərdiyimiz bütün əlamətləri özündə birləşdirməklə, yəni o həm iqamətgah, həm hərbi qala, həm ticarət mərkəzi, həm də möhtəşəm sənətkarlıq mərkəzi olmuşdur.[16] Belə şəhər tipli yaşayış yerləri içərisində Bərdə, Kaqankat, Şortəpə, Govurqala, Qalatəpə, Qaraköpəktəpə, Yedditəpə, Ergi düzü abidələri diqqəti cəlb edir.

Erkən orta əsrlərdə Uti vilayətinin beynəlxalq ticarət yollarının kəsişdiyi ərazidə yerləşməsi şəhərtipli yaşayış yerlərinin inkişafına da müsbət təsir göstərib. Ərəb coğrafiyaçıları Bərdə şəhərindən cənub-şərqə doğru – Beyləqandan, Ərdəbildən keçərək Cənubi Azərbaycan və İranın başqa şəhərlərinə doğru istiqamətlənən ticarət yolunu qeyd edirlər.[17]

Buradan belə nəticəyə gəlmək olar ki, bu ticarət yolu Bərdə, Tərtər, Ağdərə, Ağdam, Füzuli, Qubadlı, Yazıdüzü, Gorus, Şam, Urud,

---

[15]Azərbaycan arxeologiyası: [6 cilddə] / Red.hey. sədri T.M.Dostiyev. – Bakı: Şərq-Qərb, – c. 6. – 2008. – 632 s.

[16]Мамедова, Ф.Д. Кавказская Албания и Албаны / Ф.Д.Мамедова. – Баку: ЦИКА, – 2005. – 818 с.

[17]Ибн Хордадбех, Книга путей и государств. См. / Караулов Н.А. Сведения арабских писателей о Кавказе СМОМПК, вып. XXXII. – Тифлис: – 1903, отд.I, – с. 5, 15.

Vaqudi, Aqudi, Şaqat (Şalak), Bazarçay, Zəngəzurçay aşırımı, Dərələyəz, Şərur, Sisacan, Dəbil kimi yaşayış məntəqələrinin yerləşdikləri ərazilərdən keçmişdir.

Uti vilayətinin ilk orta əsr şəhər və yaşayış məntəqələrinin adları və yerləri haqqında dəqiq araşdırmalar aparılmadığından bu sahədə müəyyən boşluqlar hiss edilir. Belə ki, Govurqalanın tarixi adı barədə tədqiqatçılar müxtəlif fikirlər söyləmişdilər. Erməni tədqiqatçıları əsassız surətdə Govurqalanın Qafqaz Albaniyası ərazisində guya mövcud olmuş Tiqranakert şəhəri olduğunu qeyd etmişlər. S.Q.Bərxudaryan S.Calalyana və M.Barxudaryana əsaslanaraq kalxozçular tərəfindən təsadüfən aşkarlanmış daş sarkofaqa əsasən Govurqala abidələrinin Tiqranakertə aid olduğunu bildirsə də onun əsaslandırdığı heç bir mənbədə Tiqranakert adı çəkilmir. Sarkofaqın daş qapağı üzərindəki yazı epiqrafist S.Barxudaryan tərəfindən oxunaraq qəbrin X əsrin əvvəllərində alban çarlığını bərpa etmiş alban çarı Hamamın qardaşına aid olduğu qənaətinə gəlinmişdir. Alban çarı ailəsinə aid olan qəbr daşının üzərindəki epitafiyanın erməni dilində və erməni əlifbası ilə yazılması belə izah oluna bilər ki, VII-VIII əsrlərdə Cənubi Qafqazda ağalıq uğrunda Bizans imperyası ilə Ərəb xilafəti arasında gedən mübarizədə Xilafət Bizansa qarşı yönələn bütün qüvvələri müdafiə edirdi.[18]

Erməni alimlərinin özlərinin də qəbrin Alban sülaləsinin nümayəndəsinə aid olduğunu etiraf etdiklərini əsas götürsək, onda erməni alimlərinin son illərdə Ağdamda apardıqları arxeoloji qazıntıların nəticələrinə əsasən söylədikləri fikirləri də əsassız hesab olunur. Belə ki, Tərnəüt kəndi yaxınlığında işğal dövründə apardıqları arxeoloji qazıntıların yeri heç bir tarixi mənbəyə əsaslanmadığından Tiqranakert adlandırırlar.

Son illər erməni tədqiqatçısı H.Petrosyan, Ağdam şəhərindən 10 km şimalda, e.ə. I əsrdə Tiqran tərəfindən salınmış Tiqranakert şəhə-

---

[18]Vahidov, R.M. Govurqalada arxeloji qazıntılar // R.M.Vahidov. AMM, VI cild, – Bakı: – 1965. – s. 167-180

rinin tapılması ilə bağlı cəfəngiyyat dolu məlumatlar vermişdir. 1751 ci ildə Qarabağ xanı Pənahəli xan Şahbulaqda tikdirdiyi qalanın xarabalıqlarını qədim Tiqranakert adlandıran H.Petrosyan görünür ki, antik dövr abidəsi ilə son orta əsr abidəsini ayıra bilməyəcək qədər məlumatsızdır.

Müzəffər Ali Baş Komandanımızın torpaqlarımızı işğalçılardan azad etməsi ilə erməni vandallarının torpaqlarımızda qeyri-qanuni olaraq apardıqları arxeoloji qazıntılar nəticəsində Dünya və Qafqaz tarixində xüsusi yeri olan Albaniyanın tarixinin məhv olunmasının qarşısı alındı və ermənilərin Tiqranakert miflərinə son qoyuldu.

Arxeoloji qazıntılar nəticəsində erkən orta əsrlər dövründə Uti əyalətinin ən yaxşı inkişaf etmiş şəhərindən Bərdə, Kaqankat, Qalatəpə, Şortəpən, Ergi düzü, Əndərob yaşayış məskəni, Yedditəpə, Qaraköpəktəpə, Govurqalada qədim tikintilərin qalıqlarına, məişət və təsərrüfatda istifadə olunan maddi mədəniyyət nümunələrinin qalıqlarına, incəsənət və sənətkarlıq sahələrinə aid çoxlu sayda nadir maddi mədəniyyət nümunələrinə rast gəlinmişdir. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, erkən orta əsrlər dövründə bölgənin sakinləri qonşu, eləcə də uzaq tayfa və xalqlarla sıx iqtisadi-mədəni əlaqədə olmuşlar.

Bu isə bizə deməyə əsas verir ki erkən orta əsrlərdə bu şəhərlər Uti əyalətinin inkişaf etmiş şəhərlər olub. Daha sonralar isə sasanilərin, ərəblərin, bizansın, monqolların hücumu nəticəsində süquta uğramışdır.

II fəslin ikinci yarımfəsli **“Kənd tipli yaşayış yerləri”** adlanır. Bu yarımfəsildə Qaratəpə, Nağaratəpə,Qala, Sov, Əmirəhməd kimi ilk orta əsr abidələrinin tədqiqinə xüsusi yer ayrılır. Ümumiyyətlə, erkən orta əsrlərdə Uti vilayətində kənd tipli yaşayış yerləri daha çoxdur. Çunki, Uti vilayətinin təbiəti münbit qara torpağı, əlverişli mövqeyi burada çoxlu kənd tipli məskənlərin olmasına şərait yaratmışdır.

Onlar ərazisinin kiçikliyi və mədəni təbəqələrinin zəifliyi ilə seçilir. Dissertasiyada kəndtipli yaşayış yerlərinin quruluşu, mədəni təbəqələrinin qalınlığı, əldə edilən arxeoloji materiallar haqqında ətraflı

elmi məlumat verilmişdir. Bölgənin kəndtipli yaşayış yerləri içərisində Sov, Papov dərəsi, Nağaratəpə, Qala, Qaratəpə, Əmirəhməd təpəsi və s. abidələr daha çox diqqəti cəlb edir.

Uti vilayətində erkən orta əsrlərə aid Sov və yaxud Popov dərəsi adlanan yaşayış yeri Ağdərə rayonunun Canyataq kəndindən 2 km qərbdə yerləşir. Hələ XX əsrin 80-ci illərində buradan yol çəkilərkən və yer şumlanarkən xeyli maddi-mədəniyyət qalıqları və qəbir abidələri aşkar edilmişdir.

Bir hissəsi uçmuş qəbir açılarkən iri bir daşa təsadüf edilmişdir. Daş 1,5 metr uzunluğunda, 35-40 sm enindədir. Daşın üzərində stilistik insan təsvir edilmişdir. İnsanın başından yalnız göz və burun hissələri qazma üsulu ilə düzəldilmişdir. Əlləri isə dirsəkdən bükülərək üzünə doğru qatlanmış halda, qabarıq üsulda təsvir edilmişdir. Daş büt Şuşada Xan sarayında yerləşdirilmişdir.

Bu daşdan Ağdam rayonunun Boyəhmədli kəndindəki Məlikmollalı qəbirstanlığında və həmin kənddə Dəlləkli yalı deyilən yerdə də aşkar edilmişdir.[19]

Yerli əhalinin sadəcə "Qala" adlandırdığı Kaqankat şəhərindən cənubi-qərbə doğru təqribən 5-6 km–də Sarışin adlandırılan meşə ərazisində kənd tipli yaşayış məskənin qalıqları və böyük alban xristian qəbirstanlığı vardır.[20] Kaqankat qalasından 3-4 km yuxarıda, Murovdağın şərq ətəklərində sıx, qalın meşəlik olan ərazini yerli əhali "Qozlu kənd yeri" adlandırır. Həmin ərazidə çoxlu qoz və fıstıq ağacları olan qalın meşəlik yerləşir. Buradan da 8-10 km yuxarıda Murovdağının ətəklərinə doğru qalın meşəliklərin içərsinmdə bina və hasar qalıqları vardır. Bu ərazidən Torağayçay öz başlanğıcını götürür, hansı ki, bu çayın Tərtərlə qovuşduğu yerdə Çaraberd qalası yerləşir.

---

[19]Göyüşov, R.B. 1971-ci ildə Govurqalada (Ağdam rayonu) aparılmış arxeoloji qazıntıların hesabatı (əlyazma) // Azərbaycan SSR EA Tarix İnstitutu. İnv. № 1-43 20 s mətn, 13 foto və 4 tablo

[20]Bağırzadə, C.V. Kaqankat (Kalankatuk) şəhərinin tarixi-arxeoloji oçerki / C.V.Bağırzadə. – Bakı: Elm-təhsil, – 2013. – 83 s.

Qaratəpə abidəsi Bərdə şəhərindən cənub-şərqdə yerləşir. O qədər də hündür olmayan yastı təpədən ibarətdir. Ətrafı düz və hamar olduğundan bu təpəni və onun üstündə qoyulan müasir topoqrafik nişanı çox uzaqdan görmək mümkündür. Qaratəpə kurqan deyil, qədim yaşayış yerinin qalığıdır, bütünlüklə mədəni təbəqədən ibarətdir.[21] Bu da insanların abidənin yerləşdiyi ərazidə insanların uzun müddət yaşadığını göstərir. Əsrlər keçdikçə köhnə tikintilər üzərində yeni tikintilər uçaldılmış, onları isə başqa tikintilər əvəz etmişdi. Nəticədə düz yerdə tikinti qalıqlarından, kül və kömür laylarından, məişət və təssərrüfat tullantılarından süni təpə əmələ gəlmişdir. Qalınlığı 80 sm-ə çatan, erkən orta əsrin əvvəllərinə aid edilən üst mədəni təbəqədə çiy kərpicdən inşa olunmuş tikili qalıqları, ocaqlar, təndirlər, müxtəlif təsərrüfat quyuları aşkarlanıb tədqiq edilmişdir.Burada habelə üzərinə gil suvaq çəkilmiş təxminən 3x4 sm ölçüdə döşəmə qalıqları da qeydə alınmışdır. Bu qalıqların çubuq hörmə evin qalıqları olduğu ehtimal olunur. Qazıntılar zamanı tapılmış maraqlı inşaat materiallarından qapının dabandaşını qeyd etmək olar. Yaşayış yerindən tapılmış arxeoloji materiallar o qədər də çox olmayıb əsasən şirli və şirsiz saxsı qablarla təmsil olunmuşdur

Nağaratəpə kənd tipli yaşayış yeri, Füzuli rayonunun Babı kəndinin mərkəzindən 35 km cənub-şərqdə, Araz çayının sol sahilində, düzən bir ərazidə yerləşmişdir. Bu yaşayış yeri Babı kəndindən keçən yolun sol tərəfində - təxminən 2 km məsafədədir. Abidə xarici görünüş baxımından nağaraya bənzədiyi üçün bu adla da tanınır. Kəşfiyyat xarakterli işlər nəzərə alınmasa, abidədə irimiqyaslı arxeoloji qazıntılar aparılmamışdır.[22] Əldə edilən maddi mədəniyyət qalıqları, xüsu-

[21]Исмизаде, О.Ш. Раскопки холма Каратепе в Мильской степи // МИА. – 1965. №125, – с. 72-86.

[22]Almәmmәdov, X.İ., Quluzadә, N.V. Şeyx Babı Xanәgahında aparılmış arxeoloji qazıntılar // – Bakı: Azәrbaycan Arxeologiyası vә Etnoqrafiyası, – 2012, – s. 246-256.

silə saxsı məmulatı abidənin III-IX əsrlərə aid kənd tipli yaşayış yeri olduğunu göstərir.

İkinci fəslin **“Qalalar və müdafiə istehkamları”** adlanan üçüncü yarımfəslində Uti əyalətində mövcud olan qalalar və istehkamlar haqqında qeyd edilmişdir ki, bu istehkamların da yaranmasına səbəb torpaq sahələrinin müxtəlif adamların əlində cəmlənməsi prosesi olmuşdur. Sonralar iri torpaq sahələrinə sahib ola bilən iri feodallar həddindən artıq varlanaraq qonşu mülkləri də özlərinə tabe etmək və beləliklə də öz nüfuzlarını genişləndirməyə çalışırdılar. Həmçinin müdafiə məqsədilə daha böyük qalalar da inşa edilirdi. Aparılan tədqiqatlar sübut edir ki, Uti vilayətində, erkən orta əsrlərin başlanğıcında ayrı-ayrı feodallara məxsus qalalarla yanaşı, daha böyük, ölkə əhəmiyyəti daşıyan qalalar da inşa edilirdi. Bu tip qalalar feodal qalalarına nisbətən daha böyük olurdu.Onlarda daimi qoşun hissələri saxlanılır və silah istehsalı üçün emalatxanalar da fəaliyyət göstərirdi. Silah anbarları və ərzaq ehtiyatı saxlamaq üçün quyular qazılırdı. İctimai binalarla yanaşı, yaşayiş evləri də inşa edilirdi. Daimi, həm də gizli su ehtiyatları quyusu və s. düzəldilirdi. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, belə qalalardan Kaqankat, Hirək, Qaraköpəktəpə və Yedditəpə möhkəm müdafiə divarlarına malik müdafiə qalaları olmuşlar.

II fəslin dördüncü yarımfəsli **“Qəbir abidələri və memorial tikililər”** adlanır. Qəbir abidələri. Erkən orta əsr maddi mədəniyyət abidələri içərisində qəbir abidələrinin tədqiqi və dəfn adətlərinin izlənilməsi böyük əhəmiyyətə malikdir. Bölgənin ayrı-ayrı vaxtlarda müxtəlif imperiyaların təsir dairəsində olması, ilk orta əsrlərdə bir neçə dinin yayılması, həm də müxtəlif dəfn adətlərinin yaranmasına səbəb olmuşdur. Bu fikri müxtəlif dəfn adətlərini özündə əks etdirən maddi-mədəniyyət nümunələrinin qalıqları və qəbir tipləri də sübut edir. Uti əyalətinin erkən orta əsrlər dövrünün öyrənilməsində dəfn adətlərinin də böyük əhəmiyyəti vardır. Hansı ki, Uti əyalətində müxtəlif tip qəbir abidələrinin movcudluğu (Torpaq qəbirlər, Daş

qutular, Daş sanduqələr, Sərdabələr) xüsusən Tərtərçay vadisində hələ qədim zamanlardan gur yaşayışın olmasını sübut edir.Ərazidə müxtəlif dəfn adətlərinin olmasına səbəbi isə ərazinin müxtəlif zamanlarda yadellilərin tapdağı altında olması ilə əlaqədardır. Bunu ərazidən müxtəlif dövrlərə aid aşkar edilmiş dəfn adətlərini özündə əks etdirən maddi mədəniyyət nümunələri qalıqları  və qəbir abidələri sübut edir. Uti vilayəti erkən orta əsrlərə aid müxtəlif tipli arxeoloji abidələrlə olduqca zəngindir. Bunun da səbəbi bir tərəfdən Uti vilayətinin əlverişli təbii coğrafi şəraitə malik olmasıdırsa, digər tərəfdən də, IV əsrdən başlayaraq bütün Albaniyada (qədim Azərbaycanda) olduğu kimi burada da bir sıra iqtisadi, ictima-isiyasi və dini dəyişikliklərin baş verməsidir.[23] Məhz IV əsrdən başlayaraq, artıq Uti vilayətində feodal münasibətləri formalaşır və xristianlıq feodalizmin əsas ideologiyası kimi dövlət dininə çevrilir və dini pərakəndəlik yaranır. Bu isə bir tərəfdən əhalinin aşağı təbəqəsi arasında hələ də ibtidai dini təsəvvürlər sisteminin qalıqları güclü olması, digər tərəfdən isə xristianlıq dininin özünün daxilində üç cərəyan arasında (monofizitlər, diofizitlər və nestorianlar) mübarizəyə gətirib çıxardı. Nəhayət, bütün Azərbaycanın olduğu kimi Uti əyaləti  də VII əsrdə ərəblər tərəfindən işğalından sonra əhalinin əsas hissəsi arasında islam dininin yayılması üçün hər cür şərait yarandı. Uti vilayətinin dağlıq hissəsində yaşayan və nisbətən azlıqda qalan xristian əhalisi isə öz dini taleyini erməni Qriqorian kilsəsinə bağlamalı oldu. Buna müvafiq olaraq, düzən hissədə müsəlmanlılıq, dağlıq hissədə isə şərq xristianlığına məxsus abidələr yaranırdı, bu isə özünü memorial tikillilərdə göstərirdi. Məhs bu dövrdə islamın Azərbaycan ərazisində  geniş vüsəti ilə əlaqədar dini-sitayiş məqsədli tikililərin özünəməxsus qurluşları formalaşmışdır. Azərbaycanda bu dövrdə sürətlə inkişaf edən memarlıq tiplərindən biri qülləvari türbələrdir, ki bu tipli memarlıq abidələ-

[23]Халилов М.Дж. Раннесредневековые каменные ящики Хыныслы / Международная научная конференция «Кавказ: археология и этнология», Материалы конференции. – Баку: – 2009, – с. 237-243.

rində islam mədəniyyətinin təsiri özünü açıq şəkildə göstəririr. Bu cür abidələrə Bərdə məbədini, Təzəkənd məbədini, Kaqankat məbədini, Böyük Arran (Müqəddəs Yakob) monastırı, Govurqala məbədini, göstərə bilərik.

Müxtəlif dövrlərdə bu abidə tədqiqata cəlb olunub. Arxeoloji tədqiqatlar zamanı türbə kompleksinin xeyli hissəsi və bir neçə qəbir açılıb öyrənilmişdir. Araşdırmalar göstərmişdir ki, burada nüfuzlu və dövrün tanınmış insanları dəfn olunmuşlar.Əhmədalılar türbəsi, Mirəli türbəsi kimi tarixi memarlıq abidələri də özündə müsəlman memarlığının ənənələrini yaşadır.

II fəslin beşinci yarımfəsli **"Arxeoloji materialların təsnifatı"** adlanır. Bu yarımfəsildə Uti vilayətinin ərazisindən tapılan maddi mədəniyyət nümunələri tədqiq edilmiş və həmdövr abidələrlə müqayisəli təhlil aparılmışdır. Uti vilayətinin erkən orta əsrlər dövrünə aid olan maddi mədəniyyət qalıqları əsasən Şirsiz saxsı məmulatlarından ibarət olmuşdur. Ancaq erkən orta əsrlərin son mərhələsinə yaxın isə IX əsrin əvvəllərindən başlayaraq artıq şirli saxsı qablar istehsalına da başlanılmışdır. Bununla bağlı olaraq ilk orta əsrlərə aid gil qabları əsasən şirsiz keramika olmaqla aşağıdakı növlərə bölünür: küplər, sərniclər, xeyrələr, dopular, bərnilər, qapaqlar, çıraqlar və başqa qablar daxildir.

Bardaqlar. Uti vilayətində bardaqların boğazı uzun, ağzı dairəvi, gövdəsi bir qədər xaşaldır, yandan olan şaquli qulpu yuxarı tərəfdən qabın ağzına, aşağı tərəfdən isə onun çiyninə birləşdirilmişdir, oturacaqları yastıdır. Orta həcmli bardaqların ağzı iri, gövdələri xaşal, rəngi qara, boğazı isə gövdəyə tərəf bir qədər enlidir25.

Sərniclər. Uti vilayətində aşkar edilən sərnic nümunələri əsas etibarı ilə ortahəcimli və sadə naxışlıdır. Bunların enli boğazı, iki qulpu və yastı oturacağı vardır. Qaraköpəktəpə yaşayış yerində tək qulplu sərniclərə də rast gəlinmişdir.

Sərniclərin əksəriyyəti yaxşı formalaşdırılmış və üstü hamarlanmışdır. Sərniclər xarici formasına görə həm tək qulplu, həm də iki

qulplu olmaqla qulpları qabın ağzının kənarına bitişik olub, gövdələri yumurta şəkilli, oturacaqları isə yastıdır.[24]

Küplər. Uti vilayətində Qaraköpəktəpə yaşayış yerində daha çox rast gəlinib. İlk orta əsr abidələrindən əldə edilmiş küplərin əksəriyyəti uzunsov olub, xaşal gövdəli, oturacağı düzdür. Küplərin gövdələrinin xaşal və iri olmasına baxmayaraq, oturacaqları çox kiçikdir. Küplərdən əsasən ərzaq, şərab, su və digər mayeləri saxlamaq üçün istifadə edilirdi. Qulpsuz iri küplər torpağa basdırılır, dəstəkli küplər isə ambarın içərisinə, otaqların künclərinə qoyulur və lazım gəldikdə yeri dəyişdirilirdi.

Dolçalar. Erkən orta əsrlərdə geniş yayılmış gil qab nümunələrinin bir hissəsini dolçalar təşkil edir. Su üçün işlədilən kiçikhəcmli qara rəngli, üstü yaxşı cilalanmış dolçaların hündürlüyü 9-10 sm, ağzının diametri 5-6 sm, oturacağı isə 4-6 sm-dir. Bəzi dolçaların qulpu və ağzı cilalanmamışdır. Qulpları yarımdairəvi olan bu tip qabların oturacaqları yastı, gövdələri isə xaşaldır.

Dopular. Aşkar edilmiş dopu nümunələri xarici görünüşünə görə müxtəlif formalıdırlar. Onlar əsasən qulpsuz, kiçik və orta tutumludur. Dopuları xarici görünüşlərinə görə iki qrupa ayırmaq olar. Birinci qrupa boğazı azacıq boğmalı, gövdəsi isə xaşal dopular daxildir. İkinci qrupu isə üzərinə qazıma üsulu ilə bir-birinə paralel dairəvi xətlərlə naxış vurulmuş, hündür, darboğazlı, ortahəcmli dopular təşkil edir. Onların oturacağı yastıdır.

Qapaqlar. Erkən orta əsrlərə aid qazanlarının, küplərinin və camlarının özlərinə məxsus qapaqları olmuşdur. Yaşayış və qəbir abidələrindən tapılan gil qablar çeşid və həcmcə fərqli olduğu kimi, onlara məxsus qapaqlar da müxtəlifdir.

Camlar. Yedditəpə, Qaraköpəktəpə yaşayış yerindən tədqiqatlar zamanı IV-XIII əsrlərə aid müxtəlif formalı camlar aşkar edilmişdir. Onlar əsasən orta tutumlu olub, kiçik bir qulpla təchiz edilmişdir.

---

[24]Orucov, A.Ş. İlk orta əsrlərdə Azərbaycanda dulusçuluq / A.Ş.Orucov. – Bakı: Elm, – 1989. – 72 s.

Qazanlar. Uti vilayətində  tapılan qazan nümunələri əsas etibarilə yarımşar formadadır, onların əksəriyyətinin dairəvi yastı oturacağı var III–VIII əsrlərə aid qazanlar əsasən əl ilə kobud şəkildə hazırlanmışdır.[25] IX–X əsrlərdə isə vahid biçimli və şirli qazanlar çoxalır. Onlara dalğavari bəzəklərdən, çərtmə və xırda deşikllərdən ibarət naxışlar vurulur. Daha sonrakı dövrlərdə tapılan qazanlarda çiyin hissəsi daha çox naxışlanmış olurdu. Cəftəvari dəstəklər, zəncirvari kəmərlər bu dövr qazanları üçün xarakterikdir. Belə qazanlara ən çox Qaraköpəktəpədə rast gəlinmişdir.[26]

Duz qabları. Uti vilayayətində arxeoloji qazınılar zamanı xeyli sayda müxtəlif formalı yaxşı hazırlanmış şirli və şirsiz gil duz qabları aşkarlanmışdır. Məişət keramikasının geniş yayılmış və çox istifadə olunmuş bu növünə Qaraköpəktəpə yaşayış yerində daha çox rast gəlinmişdir.

Zoomoof qablar. Uti vilayətində erkən orta əsr zoomorf qabları xarici görünüşlərinə və hazırlanma texnikasına görə başqa gil məmulatından fərqlənir. Aşkar edilmiş zoomoorf qabların əksəriyyəti ev heyvanlarına oxşadılmışdır. Bir qismi quş və heyvan fiquru formasında hazırlanmış, digərləri isə ancaq qulpu və ağzı heyvana oxşadılmışdır.Uti bölgəsində, erkən orta əsr abidələrindən əldə edilmiş gil məmulatı içərisində, çoxda olmasa, zoomorf qablar vtapılmışdır. Bu tip gil qab nümunələrinə əsasən Füzuli rayonu ərazisində yerləşən Yedditəpə yaşayış yerində rast gəlinib.

Bu paraqrafda erkən orta əsrlərdə Uti vilayətini əhatə edən ərazilərdən arxeoloji qazıntılar zamanı əldə edilən maddi mədəniyyət nümunələri müqayisəli təhlil edilərək araşdırılmışdır.

---

[25]Ахмедов, Г.М. Неполивная бытовая керамика / Г.М.Ахмедов. Азербайджана. – Баку: АН Азерб. ССР, – 1959. – 189 с.

[26]Исмаилов, Г.С. Поселение Каракепектере –древний памятник материальной культуры Азербайджана // – Bakı: Azərb.SSR EA Xəbərləri, – 1969. №1, – s. 59-71.

III fəsil **“Uti vilayətinin ilk orta əsr təsərrüfat həyatı”** adlanır və dörd yarımfəslə bölünür. Bu fəslin **“Əkinçilik”** adlanan birinci yarımfəslində erkən orta əsrlərdə Uti vilayətinin yerləşdiyi təbii-coğrafi şərait, münbit torpağa malik olması əkinçiliyin inkişafı üçün əlverişli imkanlar yaratmışdır. Müxtəlif dənli bitkilər yetişdirilən bölgədə təkcə süni suvarılan əkin sahələri deyil, dəmyə əkin yerləri də öz məhsuldarlığı ilə seçilib.[27] Bu dövrün əkin-biçin alətləri içərisində kotan, xış, oraq, dəryaz, kavahın və s. vardır. Aparılan arxeoloji tədqiqatlar zamanı aşkarlanmış metal əkin və biçin alətləri, həmçinin buğda, arpa, çəltik, darı və s. qalıqları bölgədəki əkinçilik mədəniyyətinin səviyyəsinin göstəriciləridir.

III fəslin ikinci yarımfəsli **“Bağçılıq və bostançılıq”** adlanr. Kotandan istifadə Uti vilayətində münbit torpaqlarında bağçılıq, bostançılıq və tərəvəzçilik kimi yardımçı sahələrin inkişafına təkan verirdi. Bərdə, Kaqankat, Şortəpə, Yedditəpə, Kültəpə, Qaraköpəktəpə, Nağaratəpə kimi yaşayış yerlərində bağçılıq və bostançılıq təsərrüfatında istifadə olunan müxtəlif formalı alətlərə rast gəlinib. Süni suvarma şəbəkələrinin genişləməsi bu sahələrin daha da yaxşı inkişaf etməsi və məhsuldarlığın artması üçün şərait yaratmışdır.

**“Maldarlıq”** adlanan üçüncü yarımfəsildə arxeoloji qazıntılar nəticəsində aşkar edilən osteoloji qalıqlar da bu ərazidə maldarlığın əsas təsərüffat sahələrindən biri olduğunu sübut edir. Belə ki, Uti vilayətinin təbii-coğrafi şəraiti burada yaylaq-qışlaq maldarlığının inkişafına zəmin yaradırdı. Arxeoloji qazıntılar zamanı aşkarlanmış osteoloji qalıqlar göstərir ki, maldarlıq təsərrüfatında qoyunçuluq xüsusi əhəmiyyət daşımışdır. Əldə edilən osteoloji qalıqlar əsasən iri və xırda buynuzlu heyvan sümüklərindən ibarətdir. Burada atçılıq, dəvəçilik kimi heyvandarlıq sahələri də mövcud olmuşdur.

**“Sənətkarlıq”** adlanan dördüncü yarımfəsildə arxeoloji qazıntılar zamanı Uti vilayətinin əhatə etdiyi ərazilərdə ərazidə qara və əlvan

---

[27]Cavadov, Q.C. Əkinçilik mədəniyyətinin sorağı ilə / Q.C.Cavadov. – Bakı: Maarif, – 1990. – 200 s.

metalların istehsalında, daşcilalamada və daşyonmada, gil qab-qacaq istehsalında yeni-yeni sənət sahələrinin əmələ gəlməsində, nəfis şüşə qab-qacaq hazırlanmanın öyrənilməsində, ağacişləmədə, toxuculuqda olan yüksəlişdə, zərgərlik məmulatlarının hazırlanmasında, sümükişləmədə və s. sənət sahələrində əhəmiyyətli yüksəlişin olduğunu sübut edir.

III fəslin dördüncü yarımfəslinin birinci paraqrafı **"Dulusçuluq"** adlanır. İlk orta əsrlərdə Uti bölgəsində sənətkarlığın aparıcı sahələrindən biri dulusçuluq olmuşdur. Dulus materiallarının araşdırılması ilk orta əsrlərdə Uti vilayətində sənətkarlığın inkişaf səviyyəsi haqqında fikir söyləməyə əsas verir. Tarix boyu Azərbaycan ərazisində çoxsaylı gil məmulatlar istehsal olunmuşdur. Gildən hazırlanan məmulatlar su daşımaq (səhəng, cürdək, bardaq, kuzə, küp), su saxlamaq (squrqur, dolça, parç, tayqulp), yuyunmaq üçün (aftafa, lüləyin, fəşir), mətbəx qabları (çölmək, qazança, küvəc, piti dopuları, çilovsüsən, həlimdan), çörəkbişirmə vasitələri (kürə, təndir, sac, manqal) çoxluğu ilə fərqlənir. Azərbaycanda ilk orta əsr dulusçuluq sənətinin tədqiq edilməsinin vacibliyi arxeoloji qazıntılar zamanı aşkarlanmış materialların bolluğu ilə də əlaqəlidir.

III fəslin dördüncü yarımfəslinin ikinci paraqrafı **"Metalişləmə"** adlanır. Aparılan arxeoloji tədqiqatlar zamanı əldə edilən metal məmulatının qismən azlıq təşkil etməsi onların uzun müddət torpaq altında qaldığından erroziyaya uğraması ilə əlaqələndirilməlidir. Metal məmulatlarının qalıqları hövzənin həm İlk orta əsr, həm də inkişaf etmiş Orta əsr abidələrinin əksəriyyətindən əldə edilmişdir. Tədqiqatlar zamanı ilk orta əsrlər dövrünə aid edilmiş çoxlu dəmir parçası və çıxdaşları Uti vilayətində metalişləmənin inkişaf etməsin nişan verən əsaslı dəlilərdəndir.

Onlar əsasən təsərrüfat alətləri, bədii sənət nümunələri, müxtəlif növ silahlar, məişət əşyaları, nnumizamtik materialar, zinət əşyaları, maldarlıq maldarlıq təsərrüfatı ilə bağlı məmulatlar və s. ibarətdir.

Dəmirçilik. İlk orta əsrlərdə əsas əmək alətləri və silahlar dəmir-

dən düzəldilirdi. Dəmir həm də tikintidə, təsərrüfatda və məişətdə geniş tətbiq olunurdu. Arxeoloji qazıntılar zamanı erkən orta əsrlər dövrünə aid Uti vilayətinin mühüm mərkəzlərindən olan Bərdədə aşkara çıxarılan təsəsrüüfat alətləri, məişət qabları, müxtəlif silah növləri, qalıqları və numizimatik dəlilər metalişləmənin inkişaf etdiyini söyləməyə imkan verir.[28]

Misgərlik. Qafqaz Albaniyası tarixən yeraltı və yerüstü sərvətlərlə zəngin olmuşdur. Musa Kalankatuklu da öz əsərində bu Qafqaz Albaniyasının faydalı qazıntılarla zəngin olması haqqında məlumat verir. Bu baxımdan da Albaniyada xüssusən Uti vilayətində sənətlərin inkişafına böyük imkanlar açılmışdı. Arxeoloji qazıntılar zamanı Qarabağ, Naxçıvan, Mingəçevir, Gədəbəy, Qazax, Gəncə və s. yerlərdən tapılmış metaldan hazırlanmış belə sənət əsərlərinin varlığı da deyilənləri təsdiq edir. Bu tapıntılar Albaniyada sənətkarların ustalıq bacarıqlarının yüksək olduğunu sübut edir.

III fəslin dördüncü yarımfəslinin üçüncü paraqrafı **“Şüşə məmulatları istehsalı”** adlanır. Bu paraqrafda Govurqalada, Yedditəpədə, Bərdədə, Kaqankatda arxeoloji qazıntılar nəticəsində tapılan şüşə məmulatları tədqiq edilmişdir. Erkən orta əsrlərdə Govurqalada şüşə istehsal edən kurə mövcud olmuşdur.Həmçinin Bərdə ərazisində üç ədəd şüşə ətir qabı aşkar edilmişdir. Qablardan ikisinin səthi qabırğavarı konnelurlə bəzədilmiş, digəri isə sayadır. Bəzi qəbirlərdə metal bəzəklərlə yanaşı təbii şəvə və şüşə muncuqlara rast gəlinmişdir. Tapılan üzüklərin əksəriyyətinin qaşı müxtəlif təsvirli kiçik möhürlərdən ibarətdir. Üzüklərdən birinin şüşə qaşında ikibaşlı qartal təsviri nəqş edilmişdir. Şüşə qaşlı üzüklərdə vəhşi heyvan təsvirləri də vardır.

Beləliklə, aparılmış arxeoloji qazıntı işləri dəyərli elmi nəticələrə gəlməyə imkan vermiş, erkən orta əsrlərdə Qafqaz Albaniyasının Uti vilayətinin tarixinin mühüm səhifələrinə dair elmi yenilikləri üzə çıxarmaq mümkün olmuşdur.

---

[28]Nuriyev, A.B., Babayev Ə.H. Bərdə şəhərinin tarixi-orxeoloji oçerki (antik və orta əsrlərdə) / A.B.Nuriyev, Ə.H.Babayev. – Bakı: Nurlan, – 2001. – 182 s.

**Tədqiqatdan aşağıdakı nəticələrə gəlinir:**

- III-IX əsr abidələrinin ilk dəfə geniş planda və kompleks şəkildə araşdırılması nəticəsində ərazinin Azərbaycan Albaniyasının tarixindəki yeri müəyyənləşdirilmişdir (7).

- İlk dəfə olaraq müəllif tərəfindən Uti vilayətinin tarixi-coğrafiyası araşdırılmış, daxili və xarici ticarətdəki mövqeyi üzə çıxarılmışdır. Müəyyən edilmişdir ki, bölgənin beynəlxalq əhəmiyyəti ticarət yolu üzərində yerləşməsi əlaqələrə müsbət təsir göstərmişdir (2; 10).

- Erkən orta əsrlərdə Uti vilayətinin mədəniyyətin varislilik, ənənəvilik əsasında davamlı şəkildə inkişaf etdiyi qənaətinə gəlinmişdir.

- İlk dəfə olaraq Uti əyalətinin erkən orta əsr abidələrinin kompleks tədqiqi nəticəsində bölgədə sənətkarlığın, memarlığın, şəhərsalmanın inkişafına təsir göstərən səbəblər açıqlanmışdır. Dulusçuluq, metalişləmə və şüşə istehsalı sahəsindəki yerli xüsusiyyətlər üzə çıxarılmışdır (4; 6; 9).

- Bölgədə əkinçiliyin və maldarlığın inkişaf səviyyəsi və ona səbəb olan amillər arxeoloji tədqiqatların nəticələrinə əsasən araşdırılmışdır.

- Govurqala, Ergi düzü, Qaraköpəktəpə, Yedditəpə, Şortəpə, Qalatəpə, Govurqala və s. kimi abidələrin erkən orta əsr mədəni təbəqələrindən aşkarlanmış maddi-mədəniyyət qalıqlarının elmi təhlili əsasında həmin yaşayış yerlərinin Qafqaz Albaniyasının yaşayış yerləri sırasındakı mövqeyi müəyyən edilmişdir (3; 5).

**Dissertasiyanın məzmununu əhatə edən aşağıdakı elmi məqalələr nəşr olunmuşdur:**

1. Qarabağın ilkin Orta əsr tarixinin mənbəşünaslığı // – Bakı: Bakı Dövlət Universiteti, Tarix və onun problemləri, – 2015. №3, – s. 261-267.

2. Bərdə erkən Orta əsrlərdə Qarabağ bölgəsinin inkişaf etmiş mərkəzlərindən biri kimi // – Bakı: Qarabağın Arxeoloji irsi. Beynəlxalq elmi konfransın materialları. – 2016, – s. 76-79.

3. Qafqaz Albaniyasının Uti vilayətinin Qalatəpə yaşayış məskəni // Gənc alimlərin II beynəlxalq elmi konfransı, – Gəncə: Gəncə Dövlət Universiteti, – 2017, – s. 127-128.

4. About research of some main early middle ages christian monuments of Azerbaijan (based on materials of Garabakh territory) // – Pliladelphia, USA,Theoretical and Applied Sciense. – 2017. №12 (56), – p. 10-12.

5. О поселениях «Галатепе и шортепе» раннего средневековья провинции Ути // – Переяслав-Хмелъницкий: Актуалъные научные исследования в современном мире, – 2017. №11(31), – с. 61-66.

6. İlk Orta əsrlərdə Uti vilayətində dulusçuluq sənəti // – Bakı: AMEA, Tarix İnistitutu, Elmi Əsərlər, – 2018, cild:73, – s. 171-180

7. Историко-географические территории Албанской провинции Ути в раннем средневековье // – Kiyev: Гилея, – 2018. №11, – с. 192-196.

8. Erkən orta əsrlərdə Uti vilayətində yerləşən müdafiə istehkamları haqqında // – Bakı: Bakı Dövlət Universiteti, Tarix və onun problemləri, – 2018. №3, – s. 371-375.

9. Qaraköpəktəpə arxeoloji abidəsi// – Gəncə: Gəncə Dövlət Universitetinin Elmi Xəbərləri, – 2018. №3, – s. 272-276.

10. Источниковедение истории провинчии Ути в раннем средневековье (III-IX ВВ.) // – Scientific Light (Wroclow, Poland). – 2018. №16, – с. 12-15.

Dissertasiyanın müdafiəsi 12 iyun 2021-ci il tarixdə saat $11^{00}$-da AMEA Naxçıvan Bölməsi nəzdində fəaliyyət göstərən ED 1.13 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, I mərtəbə, akt zalı

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Naxçıvan Bölməsinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat _____ ____________ 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.05.2021
Kağızın formatı: 60/84, 16/1
Həcm: 281.665
Tiraj: 100